# Hərbi xidmət vətən borcudur

Müstəqil dövlətimizin ideologiyasının, eləcə də Azərbaycançılıq və vətənsevərlik ideallarının gəncələr arasında təbliğ olunmasına böyük ehtiyac var. Bu baxımdan doğma vətənimiz olan Azərbaycanımızın böyük gələcəyi naminə əsl vətəndaş yetişdirmək təhsilimiz və mədəniyyətimizin qarşısında çox mühüm vəzifə və prioritet məsələ kimi qalır. Dövlətçilik, vətəndaşlıq təkcə orta məktəb dərsliklərində, televiziya və radio verlişlərində əks olunmalı deyil, cəmiyyətin bütün humanitar təşkilatlarında təbliğ edilməli, bu məsələ sevgi və ehtiram hədəfinə çevrilməlidir. İşdə yaşlı nəslin üzərinə də böyük məsuliyyət düşür. Xüsusilə, müharibə şəraitində olan, torpaqlarının iyirmi faizi mənfur düşmən tapdağı altında inləyən bir xalqın övladlarının vətənpərvər ruhda tərbiyə alması qaçılmaz bir amildir.

Gənclər hərbi xidmətə yollanmazdan qabaq onlara vətənpərvərlik hissi daha güclü aşılanmalıdır. Artıq hərbi xidmətə yollanan gənc əlinə silah almamışdan öncə ən azı mənəvi cəhətdən döyüşə tam hazır olmalı, bunu bütün varlığı ilə hiss etməlidir.

2009-cu ildən fəaliyyət göstərən Qəbələ Turizim və Otelçilik üzrə Peşə Tədris Mərkəzi ilk günlərdən öz şagirdləri sırasından hərbi xidmətə xeyli gənc yola salmışdır. Onlardan təhsilini yarımçıq qoyub vətənimizin keşiyinə yollanmış və hərbi xidmətini şərəflə başa vuraraq geri qayıdanlar yenidən tədris mərkəzinə bərpa edilmişlər.

Hər dəfə tədris mərkəzindən şagirdlərimizi hərbi xidmətə yolasalma mərasimi keçirilir. 2013-cü ilin yanvar çağırışında Qəbələ Turizim və Otelçilik üzrə Peşə Tədris Mərkəzindən dörd şagird--Teymur Teymurbəyli, Elşən Əzimov, Murad Ramazanlı və Rəvan İsrəfilzadə hərbi xidmətə yola salındılar.

Yanvarın iyirmi dördündə ənənəvi olaraq yenə də bu şagirdlərin yola salınması ilə bağlı tədris mərkəzinin foyesində tədbir keçirildi. Tədbirə valideyinlər də dəvət edilmişdilər. Tədbiri giriş sözü ilə açan mərkəzin direktoru E. Kazımov vətənpərvərlik mövzusunda gənclərə bir sıra tövsiyələr verdi. O, vətənimizin, torpaqlarımızın müdafiəsi uğrunda həyatlarını fəda etmiş qəhrəmanlarımızı gənclərə örnək kimi misal gətirərək onları da ərazilərimizin bütövlüyünü qorumaq üçün bu qəhrəmanlara bənzəməyə, lakin şəhid deyil, qazi olmağa çağırdı. Çıxışının sonunda tədris mərkəzinin direktoru hərbi xidmətə yollanan şagirdləri və onların valideyinlərini bir daha təbrik etdi, gənclərə ləyaqət və şərəflə xidmət edib, alnı açıq, üzüağ geri dönmələrini arzuladı.

Çıxış edən tədris mərkəzinin tədris-istehsalat işləri üzrə direktor müavini R. Məmmədova hərbi xidmətə yollanan şagirdlərə öz xeyirduasını verdi.

Tədris mərkəzində istehsalat təlimi ustası işləyən, həm də əsgər atası olan Azər Abdulxalıqov əsgər atası olduğu üçün fəxr etdiyini bildirdi və gənclərə öz məsləhətlərini verdi.

Valideyinlər adından çıxış edən Murad Ramazanlının atası Nadir Ağababayev belə bir tədbirin keçirildiyi üçün tədris mərkəzinin rəhbərliyinə və kollektivinə öz təşəkkürünü bildirdi, oğlunun, eləcə də hərbi xidmətə yollanan digər şagirdlərin vətənə əsl layiqli övlad olacaqlarına inandığını söylədi.

Tədris mərkəzində təhsil alan bir sıra şagirdlər də hərbi xidmətə yola düşən qardaşlarına öz xeyir-dualarını verdilər.

**İlham Əfəndiyev,**
**tədris mərkəzinin hərbi rəhbəri.**

# Qazdan istifadə edərkən təhlükəsizlik qaydalarına riayət edin!

Qaz cihazlarından təlimata uyğun düzgün istifadə edilməməsi səbəbindən insan itkisi və xəsarət alması ilə nəticələnən partlayış, yanğın, zəhərlənmə kimi bədbəxt hadisələr baş verir. Bu cür fövqəladə halların baş verməməsi üçün aşağıdakı təhlükəsizlik qaydalarına əməl etmək vacibdir:

—Yanğın, partlayış və dəm qazından zəhərlənmə kimi fövqəladə halların baş verməməsi üçün obyektlərdə və yaşayış sahələrində standartlara uyğun olmayan qaz cihazlarından istifadə etmək qadağandır!

—Hər bir məişət qaz cihazının təhlükəsizlik qurğuları daim saz vəziyyətdə olmalı və onlardan istifadə zamanı müəyyən edilmiş təhlükəsizlik qaydalarına tam riayət edilməlidir!

—Müəyyən məqsədlər üçün qaz cihazlarından qurğu və aqreqatların, hissələrin çıxarılmasına yol vermək olmaz. Qaz cihazlarının yerinin dəyişdirilməsi, təmiri yalnız qaz təsərrüfatı müəssisəsi tərəfindən həyata keçirilməlidir!

—Mənzildə adam olmayanda içəri daxil olarkən qazın sızmamasına tam əmin olmamış işığı yandırmaq, elektrik cihazlarını işə salmaq, siqaret çəkmək, açıq alovdan istifadə etmək olmaz!

—Qış Mövsümü başlamazdan əvvəl mütəxəssislər tərəfindən sobalara baxış keçirilməli, bütün sobaların tüstü bacaları təmizlənməlidir!

—Qaz cihazlarını işlək vəziyyətdə qoyub yatmaq, uşaqlara, xəstələrə etibar edib evdən çıxmaq olmaz!

—Qaz cihazlarına qazın nəql edilməsində rezin şlanqlardan istifadə olunması qəti qadağandır!

—Qaz cihazlarından və qaz kəmərlərindən qazın sızmasını yoxlamaq üçün açıq alovdan istifadə etmək olmaz. Bundan ötrü yalnız sabun məhlulundan istifadə edilməlidir!

—Qaz cihazlarından istifadə edərkən pəncərənin nəfəsliyi açıq vəziyyətdə olmalıdır. Mənzili tərk edərkən qaz cihazları mütləq söndürülməli, qaz borularının ventilləri bağlanmalıdır!

—İşlək qaz cihazlarını nəzarətsiz qoymaq, sobaların həddindən artıq qızmasına yol vermək olmaz!

—Mətbəxdə məişət qaz sobalarının üzərinə qoyulan qazan, çaydan və s. qablardakı suyun səviyyəsi elə olmalıdır ki, su qaynayanda daşmasın. Belə ki, qaynayan su daşıb odluğu söndürə bilər. Bu isə qaz sızması ilə nəticələnər və partlayış baş verər!

—Vanna otağında nəfəslik, təbii işıq mənbəyi, ventilyasiya kanalı olmalıdır. Qapı bayır tərəfə açılmalı və qapının aşağısında hava daxil olması üçün dəliklər olmalıdır!

—Qaz cihazları olan otaqlarda tezalışan məhsulların yerləşdirilməsi və saxlanılması təhlükəlidir!

—Mətbəxdə, mənzildə, vanna otağında, pilləkən qəfəsində, zirzəmidə qaz iyi hiss etdikdə açıq alovdan, elektrik cihazlarından istifadə etməməli, dərhal 104 nömrəli telefonla qaz idarələrinin Qəza Xidmətinə xəbər verilməlidir!

**Fövqəladə Hallar Nazirliyinin Dövlət**

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrində xidmətə qəbulla əlaqədar müsabiqə ELAN EDİR

«Daxili işlər orqanlarının sıravi və kiçik rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin elan edilməsi haqqında» Daxili İşlər Nazirliyinin əmrinə əsasən Qəbələ Rayon Polis Şöbəsində post patrul xidmətinin polis nəfəri vəzifəsində 4 vakant yeri tutmaq məqsədi ilə keçirilən müsabiqədə Silahlı Qüvvələrdə həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, yaşı 20-dən az, 30-dan çox olmayan, boyu 175 smdən yuxarı (qadınlar üçün 170 sm) olan normal bədən kütlə indeksli (20-27), düzgün bədən quruluşlu və idman cüssəli, tam orta və orta ixtisas və ya ali təhsilli və «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə»də müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Şərtlərə uyğun gələn, müsabiqədə iştirak etmək arzusu olan vətəndaşlar 2013-cü ilin fevral ayının 1-dən mart ayının 2-dək Qəbələ rayon polis şöbəsinə ərizə ilə müraciət edərək aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər.

**—şəxsiyyət vəsiqəsi**
**—təhsil haqqında sənədin əsli**
**—hərbi bilet (kişilər üçün)**

Təqdim olunmuş sənədlər əsasında namizədin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılaraq, onun sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanlapı əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılacaqdır.

Müsabiqədə test imtahanları və müsahibə olmaqla iki mərhələdə keirilələcəkdir. Test imtahanını müvəffəqiyyətlə vermiş namizəd müsahibəyə buraxılacaqdır.

**DİN-nin Baş Kadrlar İdarəsi**

**əlaqə tel:** 590-93-27, 590-92-21

İnternet ünvanı: ***www.mia.gov.az***

**Qəbələ RPŞ-nin əlaqə tel:** (024) 205 18 28, (024) 205 18 22.